


# Şuşa özünə, tarixinə və gələcəyinə qovuşur

**Şuşa... Azərbaycanın milli-mənəvi dəyərlərinin məbədi, zəngin mədəniyyətinin beşiyi... Xurşidbanu Natəvan, Üzeyir bəy Hacıbəyli, Bülbül, Fikrət Əmirov və neçə-neçə sənət dahilərini dünyaya bəxş edən...**

1992-ci ildə Şuşanın işğalı ilə qəlbimizə vurulan yara 30 il sonra Ali Baş Komandan İlham Əliyevin qüdrəti, xalqımızın sarsılmaz iradəsi, şanlı ordumuzun qəhrəmanlığı sayəsində qaysaq bağlamağa başladı. 2020-ci il noyabrın 8-də Şuşa uzun illər sonra öz ilk baharını yaşadı. Böyük Zəfərin günəşi doğdu Şuşaya da, tariximizə də, taleyimizə də. Biz Şuşanı unutmadıq, xoş günümüzdə də, kədərimizdə də o, ürəyimizdə idi. Arzuladıq, ümidlərimiz, xəyallarımız pöhrələndi, hər kəs qovuşacağımız günü bir cür, amma başqa-başqa rənglərdə xəyal etdi.

Şuşamızı Vətənə qovuşdura bildik. Bunu məcazi mənada ruhun bədənə qayıtması ilə də müqayisə etmək olar. Əslində, elə bu ruhdur ki, bizi zirvədəki Şuşamıza qovuşdurdu, bizi bizə qaytardı.

## Şuşada silsilə tədbirlərin təşkili bərpa edilib

XX əsrin 80-ci illərinin sonuna qədər Şuşada bir çox yüksəksəviyyəli, yaddaqalan tədbirlər keçirilirdi. Bütün bunları görmüşük, amma sonralar xatirələrdə yaşatmışıq. Bir ara sanki zaman dayanmışdı. Təxminən bir qərinə qədər müddətdə tariximizi, özülümüzü dağıtmağa çalışmışdı düşmən.

İşğaldan azad edilmiş ərazilərimizdə indi zaman da saat kimi işləyir, genişmiqyaslı və sürətli tikinti-bərpa, quruculuq işləri tam sürətlə davam edir. Qarabağın və Şərqi Zəngəzurun tarixində yeni səhifənin, daha bir səhifəmizin adı Şuşadır. İşğalı müddətində mənfur düşmənin dağıtdığı, viran qoyduğu Şuşa da yenidən xoşbəxt günlərinə addım-addım yaxınlaşır.

Hələ 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev Şuşanın azad edilməsi münasibətilə xalqa müraciətində demişdi ki, Qarabağın tacı olan bu şəhər tezliklə dirçəldiləcək, özünün əvvəlki şöhrətini qaytaracaq, yarımçıq qalan silsilə beynəlxalq tədbirlər yenidən keçiriləcək.

İndi dağılmış, erməni vandalları tərəfindən xarabalığa çevrilmiş Şuşa başdan-başa quruculuq meydanıdır. Bununla eyni vaxtda şəhərdə bir-birindən maraqlı yerli və beynəlxalq səviyyəli tədbirlər keçirilməkdədir.

Ölkə rəhbərimizin sərəncamı ilə "Şuşa ili" elan edilən və sona çatmaqda olan 2022-ci il Vətənimizin şanlı salnaməsində möhtəşəm, parlaq izlərini qoyur və bütün dünya görür ki, Azərbaycan xalqı öz tarixinə, mədəniyyətinə sahib çıxmağı bacarır.

## "Xarıbülbül" festivalı

Vətən müharibəsindən sonra Şuşada keçirilən, yaddaqalan tədbirlərdən biri "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalıdır. Milli-mənəvi dəyərlərimizi dünyaya nümayiş etdirən musiqi bayramının məhz Şuşada keçirilməsi təsadüfi deyil. O, məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyilə əlaqədar 1989-cu ildən Şuşada keçirilməyə başlayıb. Festival ilk dəfə həmin ilin may ayında, məhz xarıbülbülün çiçəklənmə dövründə gerçəkləşdirilib.

Ölkə Prezidentinin 2021-ci il 7 may tarixli sərəncamı ilə "Xarıbülbül" festivalı bərpa olundu və mayın 12-14-də Şuşada şəhərin azad edilməsindən sonra ilk "Xarıbülbül" Musiqi Festivalı keçirildi. Festivalın açılışında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva, mədəniyyət, ictimaiyyət xadimləri, xarici qonaqlar iştirak etdilər.

Müzəffər Ali Baş Komandan festivalın açılışında çıxışında bunun tarixi hadisə olduğunu, onun şəhidlərimizin əziz xatirəsinə həsr edildiyini bəyan etdi. Bundan sonra "Xarıbülbül" Musiqi Festivalının hər il keçiriləcəyi ilə bağlı müjdə də verildi.

İllər sonra Cıdır düzündə "Bayatı-Şiraz" səsləndi. Musiqinin sədaları dalğa-dalğa ətrafa yayıldıqca sanki göyün üzü açıldı, təbiət canlandı.

Növbəti "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı isə "Şuşa ili" çərçivəsində bu ilin mayında keçirildi. Musiqi festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil edilmişdi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər.

Üç gün davam edən festival çərçivəsində milli rəqs, muğam sənəti təqdim olundu, ölkəmizin müxtəlif regionlarını və milli azlıqları təmsil edən folklor kollektivlərinin konsertləri keçirildi. Azərbaycan xanəndələrinin müxtəlif illərdə Şuşada lentə alınmış ifalarından ibarət videoçarxlar ilə birlikdə klassik musiqi əsərləri təqdim olundu.

## Vaqif Poeziya Günləri

Şuşada keçirilən əlamətdar tədbirlərdən biri də Vaqif Poeziya Günləridir. Bu tədbirin ənənəvi xarakter alması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1967-ci ildə Şuşada olarkən Ulu Öndər Vaqifin məzarını ziyarət etmək istəsə də, onu tapa bilməyib. Onun göstərişi ilə məzar tapılmış və o, yaxşı vəziyyətdə olmayan dağılmış məzarı ziyarət etmişdir. Ulu Öndər sonralar çıxışlarının birində gördüyü bu məzarın Vaqifə layiq olmadığını söyləmişdir.

Sonralar Heydər Əliyevin göstərişi ilə Vaqifin məzarı üzərində 1980-1981-ci illərdə abidə və məqbərə tikilmişdir. Kompleks Cıdır düzünə yaxın ərazidə inşa edilmişdi. 1982-ci ilin yanvar ayında Ulu Öndərin iştirakı ilə Molla Pənah Vaqifin məqbərəsinin təntənəli açılışı olmuşdur. Kompleksdə Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid olan 80-ə yaxın eksponat da sərgilənmişdi. Soyuq, qarlı-şaxtalı gündə keçirilən açılış mərasiminə ölkənin tanınmış sənət adamları toplaşmış, tədbir milli mədəniyyət və sənət bayramına çevrilmişdi. Həmin tarixdən etibarən, hər il avqust ayında Vaqif Poeziya Günləri keçirilmiş, tədbirin proqramına şeir gecələri ilə yanaşı, konsertlər də daxil edilmişdi. Vaqif Poeziya Günlərinin keçirilməsi ənənəsi Şuşanın erməni quldurları tərəfindən işğalına qədər davam etmişdir. 1992-ci ildə erməni qəsbkarları Şuşadakı digər tarixi-memarlıq abidələrimizlə yanaşı, Molla Pənah Vaqifin məqbərəsini də dağıtmışdılar. Mənfur düşmənin torpaqlarımızı işğal etməsi nəticəsində uzun illər idi ki, Vaqif Poeziya Günləri də keçirilmirdi.

Vətən müharibəsində torpaqlarımız azad edildikdən, ərazi bütövlüyümüz bərpa olunduqdan sonra bu yerlərdə böyük quruculuq layihələri, tarixi və mədəni abidələrin bərpası həyata keçirilir. Eyni zamanda Qarabağ və Şərqi Zəngəzurda tarixən keçirilən beynəlxalq səviyyəli mədəni tədbirlər də baş tutur.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 25 dekabr.- S.14.